# “MÖHTƏŞƏM ZƏFƏRİN NİŞANƏSİ” ULU NAXÇIVANIMDA

***“Möhtəşəm Zəfərin nişanəsi” adlı 5-ci kitabıma Naxçıvan Dövlət Universitetində keçirilən təqdimata, ümumilikdə Naxçıvana ikinci səfərim barədə təəssüratlarım.***



Çox gözəl bir deyim var: “Tarix təkrarlanır”. Bəli, bu, həqiqətən də belədir, tarix təkrarlanır, dövran vaxt keçəndə tərsinə dönə bilir, yaxşı və pis tərəfinə. Zaman bir bumeranq kimi bir-bir insanın üzünə qayıda bilir. Bəzən heç inanmadığınız bir vaxtda illər əvvəl getdiyi yerə insan bir də dönür. Keçən günləri yada saldığı kimi gələcəyə də eyni cür yanaşır, işıqla baxır. 23 iyun 2023-cü il tarixində mən buna bir daha şahid oldum.

Xatırlayırsınızsa,2018-ci ilin sentyabr ayının əvvəllərində mən ailə üzvlərimləbirlikdəvətənimizin dilbər guşələrindən biri, Ulu Öndər diyarı ulu Naxçıvanıma ilk səyahətimi etmişdim. Burada həddən ziyadə az yer görüb tanısam da ancaq çox yaxşı təəssüratlarla ayrıldım. O vaxt axırıncı dayanacağım Şahbuz rayonunun ərazisində yerləşən gözəllərgözəli Batabat gölü olmuşdu. Səhəri günü isə böyük təəssüf hissi ilə mən Bakıya qayıtmışdım. İzləyicilərim “Ulu Naxçıvanım” adlı 3-cü kitabımı oxuyaraq həmin səfərimlə bağlı bütün təəssüratlarımla çox ətraflı bir şəkildə tanış ola bilərlər. Həmin vaxt Naxçıvan mənə o qədər xoş təsir bağışlamışdı ki, Bakıya qayıtmağa həvəssiz idim. Bununla belə qayıdanda, elə həmin anlar çox ümidliydim. Ümid edirdim ki, bir gün Naxçıvana yenə qayıdacağam, onu gəzib-görəcəyəm, kitabımın təqdimatı burada keçiriləcək. “Ulu Naxçıvanım” adlı kitabımda da bunu qeyd etmişdim. Yazmışdım ki, mən inanıram ki, Naxçıvana bir də qayıdacağam, özü də təyyarə ilə deyil-,avtomaşınla, yəni ata-baba torpaqlarımızdan keçərək. Mən buna dərin ümidlər bəsləyirdim və o günlərin gəlməsini gözləyirdim. Bilirdim ki, yenilməz Azərbaycan oğullarının sayəsində torpaqlarımız işğaldan azad olunacaq.

Varlığımız kimi inansaq da xəyal etdiyimiz o günlər hamımızın gözlədiyindən də tez gəldi, özünü bir az da olsun gözlətmədi. Həmin vaxtdan məni ayıran 5 il bir yuxu kimi, bir kinofilm lenti kimi gözümün qabağından keçsə də, hər dəqiqəsini ən xoş xatirə kimi xatırlayıram. 2020-ci ildə şanlı Vətən müharibəmizdə qazandığımız parlaq qələbədən sonra mən adı kimi möhtəşəm olan “Möhtəşəm Zəfərin nişanəsi” adlı sayca 6-cı kitabımı cəmi 11 ay vaxt ərzində qələmə aldım. 708 səhifədən ibarət olan bu kitabın təqdimatı indiyə kimi ölkəmizin hüdudlarında bir çox yerlərdə keçirilmişdi. Bundan əvvəlişıq üzü görmüş digər kitablarımın da bir çox mötəbər elm ocaqlarında təqdimatı baş tutmuşdu. Azərbaycanımızın bölgələrini bir-birindən ayırmayıb hamısına eyni cür baxsam da ancaq Naxçıvan mənim gözümdə öz parlaq yerini daim qoruyub saxlayırdı. Mən ötən 5 illik müddət ərzində hər an düşündüyüm arzumu bir daha yaddaşımda yenilədim. Onsuzda bu arzu ürəyimdəki yerini bir an da olsun tərk etməmişdi. “Möhtəşəm Zəfərin nişanəsi” kitabıma ulu Naxçıvanımda təqdimat mərasiminin keçirilməsini çox arzu edirdim. Bu arzumun gerçəkləşməsi üçün isə zəruri tədbirlər görməyə başladım.

Azərbaycan Respublikası Prezidentinin Naxçıvan üzrə təyin edilmiş səlahiyyətli nümayəndəsi cənab Fuad Nəcəfliyə məktub ünvanladım və məktubumda qeyd etdim ki, Şanlı zəfərimizə, işğaldan azad edilmiş torpaqlarımıza, həmin torpaqları bizə qaytarıb özləri qayıtmayan müqəddəs şəhidlərimizə həsr etdiyim “Möhtəşəm Zəfərin Nişanəsi” adlı 6-cı kitabıma Naxçıvanda təqdimatın keçirilməsi mənim çoxdankı arzumdur. Bu arzumun yerinə yetirməsinə kömək etməsini cənab Fuad müəllimdən xahiş etdim. Kitabın təqdimatının Naxçıvanda keçirilməsinin əsas səbəbi isə Naxçıvanın 6 rayonundan olan 18 nəfər Vətən müharibəsi şəhidi barədə məlumatların həmin kitabda yer alması idi və bu barədə Naxçıvan şəhidlərinin ailə üzvləri bilirdi.Kitabın təqdimatının orada keçirilməsi onların da arzusu idi. Kitabımda adları çəkilən həmin şəhidlərimizin siyahısını nəzərinizə çatdırmaq istəyirəm:Göydağlı Ramazan Əbülfət oğlu, Məmmədov Əli Abbas oğlu, Məmmədov Elşən Əziz oğlu, İbrahimov Ruzi Əliağa oğlu, Səmədli Elşən Bayram oğlu, Muradlı İlkin İlyas oğlu, Əsgərov Təbriz Çapay oğlu, Alməmmədov İman Tarverdi oğlu, Seyidov Miryasin Mirqafar oğlu, Xəlilli Murad Vəli oğlu, Məmmədov Zaman Habil oğlu, Abdullayev İntiqam Allahverdi oğlu, Hümbətov İmaməddin Muxtar oğlu,Novruzlu Pərviz Qorxmaz oğlu, Orucov Coşqun Oruc oğlu, Rzayev Kənan Əbdürrəhman oğlu, Cəlilov Sahil Oktay oğlu, Cəlilov Həsən Məhərrəm oğlu.



Bizim bu arzularımızın həyata keçməsinə şərait yaratdığı üçün bəri başdan hörmətli Fuad Nəcəfliyə və bu işdə əməyi olan bütün insanlaratəşəkkür edirəm. Onlar mənim arzumu reallaşdırmaq üçün əllərindən gələni etdilər və mənim ümidimi qırmadılar. Uca Allah hər birinin yar və yardımçısı olsun.Kitabın təqdimatının keçirilməsi 23 iyun 2023-cü il, saat 11-ə təyin edildi.O günün gəlməsi üçün səbirsizlənir və o günə məni aparan hər gün sevincim, həyəcanım daha da artırdı. Nəhayət ki, ulu Naxçıvanımla bir daha görüşəcəkdim. Özü də bu dəfə Qərbi Azərbaycan torpaqları üzərindən keçərək!

Təbii ki, insan Allahın yaratdığı ən üstün, ali varlıq olsa da Allahın onun üçün təyin etdiyi üstünlükdən o tərəfə çıxa bilməz. Özümüzdən də asılı olmadan gözləmədiyimiz bir hadisə baş verdi. 22 iyun tarixində baş tutmalı olan Naxçıvana uçuşun reysləri sərt hava şəraiti səbəbiylə 13 saat təxirə salınmalı oldu. Hesaba almadığımız çətinlik bu idi. Lakin hansı sərtlikdə olursa olsun, heç bir hava şəraiti, qar, boran, çovğun, eləcə də dünyanın bütün çətinlikləri bir araya gəlsə belə məni yolumdan döndərə bilməzdi. Şükürlər olsun ki, döndərmədi də. Səhərisi gün, yəni 23 iyundasaat 7 radələrində ailəlikcə təyyarəyə mindik və təyyarə axır ki, Naxçıvana uçdu.



Artıq ikinci dəfə idi ki, təyyarə ilə Naxçıvana səyahət edirdim. Naxçıvan səmasını görmək və bu gözəl diyarı yüksəklərdənseyr etmək üçün çox darıxmışdım. Reysin təxirə salınması səbəbindən Naxçıvana çatana qədər yuxusuz və çox yorğun idim. Bununla belə şəhidlərimizə həsr etdiyim kitabımın təqdimatına getmək həvəsi yuxusuzluğum və yorğunluğuma qalib gəlmişdi, mən təyyarənin pəncərəsində təşnələr suyu seyr etdiyi kimi vətənimin dilbər guşələrini acgözlüklə seyr edirdim. Bir neçə dəqiqə sonra təyyarə bələdçiləri Naxçıvana çatdığımızı bildirdilər. O anda özümü hədsiz dərəcədə rahat, gümrah hiss etdim. Naxçıvanı ikinci dəfə gördüyüm zaman fikirləşdim və özümə söz verdim ki, nə olursa olsun, daxilimdəki bu yorğunluğa qalib gəlməli və tarixdə sadəcə bir dəfə yaşanılacaq olan bu gözəl hadisəni özü kimi gözəl bir şəkildə dəyərləndirməliyəm.

Olduğumuz hava gəmisi təqribən saat 8 radələrində Naxçıvan Hava Limanına eniş etdi. Hələ tədbirin başlanmasına 3 saat vaxt qalırdı. Hava Limanının qarşısındabizi Naxçıvan Dövlət Universitetinin Gənclər Təşkilatının sədri, Beynəlxalq Münasibətlər və Hüquq Fakültəsinin müəllimi, çox hörmətli Əziz Qasımov sanki adının mənası kimi özü üçün əziz olan insanları qarşılayırmış kimi isti, səmimi münasibətlə qarşıladı. Bizi öz şəxsi avtomaşını ilə universitetin qonaq evinə apardı. Burada qısa müddətli fasilədən və tədbirə hazırlaşdıqdan sonra Əziz müəllimə bildirdim ki, tədbirdən əvvəl ilk olaraq Ulu Öndərimizin sağlığında ana yurdu Naxçıvanda qoyulmuş abidəsini ziyarət etmək istəyirəm. O, mənim təklifimi məmnunluqla qəbul etdi və bizi büst qoyulmuş meydana apardı, mən büstü ziyarət etdim və önünə tər güllər qoydum. 2018-ci ildə də mən səfərimin əvvəlində həmin büstü ziyarət etmişdim. Ulu Öndərin büstünü ziyarət etdikdən sonra biz Əziz müəllimin müşayiəti ilə birbaşa tədbirin keçiriləcəyi yerə - Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Münasibətlər və Hüquq Fakültəsinin binasına getdik.

Akt zalına doğru qalxan kimi tədbir məkanına bizdən qabaq çatmış olan şəhid ailələri bizi gözləyirdilər. Əvvəllər onların heç biri ilə əyani olaraq görüşməmişdik, yalnız bəziləri ilə telefon vasitəsi ilə əlaqə saxlayıb hal-əhval tutmuşduq. Bununla belə onların əksəriyyəti məni, ailə üzvlərimi xoş sözlə, güllər üzlə qarşıladılar.Xüsusilə Culfa rayonunun Kırna kəndindən olan şəhid qardaşım Ramazan Göydağlının valideynləri Əbülfət əmi və Zülfünaz ana, eləcə də onların yaxını, Kırna kənd tam orta məktəbinin müəllimi İntizam Əliyev və Kırna kənd tam orta məktəbinin coğrafiya müəllimi Həbibə Vəliyevaməni böyük ehtiramla qarşıladılar. Onlar elə münasibət göstərirdilər ki, kənardan baxan bizim mehriban bir ailənin üzvləri olduğumuzu zənn edərdi. Onlar mənim haləhvalımı soruşdular, “xoş gəldin” sözünü dedilər və mənim ünvanıma gözəl sözlər söylədilər. Şəhid ailələrinin mənə bu cür dəyər verməsi və qarşılaması mənə son dərəcə xoş təsir bağışladı və qürur verdi.

***(Davamı 13-cü səhifədə)***

# "MÖHTƏŞƏM ZƏFƏRİN NİŞANƏSİ" ULU NAXÇIVANIMDA

*(Əvvəli 12-ci səhifədə)*

Həmçinin təqdimatda Azərbaycan Silahlı Qüvvələrinin polkovnik-leytenantı, Vətən müharibəsi şəhidi Sədi Süleyman oğlu Musayevin anası Nəsibə ana da iştirak edirdi. Nəsibə anaya şəhidimizin ailəsi ilə apardığım "Mən Sədini qürurla yola salıb fəxrlə qarşıladım" adlı müsahibəmin "Kredo" qəzetində dərc olunmuş nüsxələrini təqdim etdim. Elə həmin təqdimatda Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi Kənan Vaqif oğlu Quliyevin anası İlhamə ana da iştirak edirdi.İlhamə anaya da şəhidimizin ailəsi ilə apardığım "Mən onu hər zaman yanımda hiss edirəm' adlı müsahibəmin "Kredo" qəzetində dərc olunmuş nüsxələrini təqdim etdim. Mən bir daha bu yazı vasitəsilə şəhid ailələrinə dəvətimi çatdıran şəhid Ramazan Göydağlının atası Əbülfət əmiyə və bütün şəhid ailələrinə dərin təşəkkürümü bildirirəm!

Hələ tədbir başlamazdan əvvəl mən zala daxil olaraq şəhid ailələri, qazilərlə bir-bir görüşdüm. Əbülfət əmi mənə əsl əmi qayğısı və doğmalıq göstərərək yanımdan ayrılmadı, məni bir-bir şəhid ailələrinə təqdim etdi.Naxçıvanımızın fəxrlərindən, qürurlarından olan böyük şairimiz, çox hörmətli Xanəli Kərimli də tədbirdə iştirak edirdi. O, mənimlə görüşdü, yaradıcılığımla maraqlandı, "Kredo" qəzeti vasitəsi ilə məni mütəmadi olaraq izlədiyini bildirdi və mənə yaradıcılıq uğurları arzuladı.

"Ulu Naxçıvanım" adlı kitabımda yer almış "35 ilin dostları" məqaləsi, yəqin ki, oxuculara tanışdır. Mən həmin məqaləmdə atamın Naxçıvandan, yəni Şahbuz rayonunun Remeşen kəndindən olan, həmin vaxt Naxçıvan MR Prokurorluğunda məsul vəzifədə çalışan, eləcə də həmin rayonun Kükü kəndindən olan və Naxçıvan MR Ali Məhkəməsində məsul vəzifədə çalışan tələbə yoldaşları ilə illər sonra burada görüşməsindən bəhs etmişdim. Tədbirdə kitabımda qeyd etdiyim, atamın tələbə yoldaşı, artıq prokurorluq orqanlarından təqaüdə çıxsa da Naxçıvan Dövlət Universitetində cinayət hüququ kafedrasının müəllimi və eyni zamanda mediasiya orqanlarında mediator kimi çalışan dəyərli Ələddin Məmmədov da iştirak edirdi. Ələddin əmi məni və atamı görən kimi bizi köksünə sıxdı, salamlaşdı, hal-əhvalımızı soruşdu və onunla da geniş və ətraflı söhbətimiz oldu. O, bizim illər sonra yenidən Naxçıvana gəlməyimizə görə çox sevincli idi. Haqqında bəhs etdiyim "Ulu Naxçıvanım" adlı kitabımla tanış oldu və mən həmin kitabı ona hədiyyə verdim. İllər sonra onunla bir daha görüşmək atamı da, məni də çox sevindirdi.

Əvvəlcədən tərtib edilmiş proqrama əsasən tədbiri giriş sözü ilə Naxçıvan Dövlət Universitetinin rektoru, tarix üzrə fəlsəfə doktoru hörmətli Elbrus İsayev açmalı olsa da obyektiv səbəblərdən Elbrus müəllim tədbirdə iştirak edə bilmədiyindən tədbirdə Naxçıvan Dövlət Universitetinin Tədris və Tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov iştirak edirdi. O, mənimlə tanış oldu və kiçik yaşlarımdan başladığım yaradıcılığıma olan marağını və təəccübünü gizlədə bilmədi, eyni zamanda mənə yaradıcılıq uğurları arzuladı. Mənim Naxçıvana olan səfərimin və universitetdə keçən kitab təqdimatının əsas səbəbkarlarından olan, universitetin rektoru Elbrus İsayevin və prorektor Arzu Abdullayevin obyektivsəbəbdən tədbirdə iştirak edə bilməyəcəklərini də mənə Rafiq müəllim dedi. Mən tədbirin keçirilməsini təşkil etdikləri üçün bir daha Rafiq müəllimə təşəkkür etdim, təşəkkürlərimi Elbrus müəllimə və Arzu müəllimə çatdırmasını ondan xahiş etdim. Artıq bir neçə dəqiqə sonra tədbir rəsmən başlanacaqdı, həyəcanım get-gedə artırdı. Və nəhayət, tədbir başladı...

"Möhtəşəm Zəfərin Nişanəsi" adlı kitabımın təqdimatı Əziz Qasımovun aparıcılığı ilə açıq elan edildi. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndi, tədbir iştirakçıları himnimizi ayaqüstə dinlədilər və ifa etdilər, sonra isə müqəddəs şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Çıxış üçün ilk söz Naxçıvan Dövlət Universitetinin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimova verildi. Rafiq müəllim tədbirdə qonaqları salamlayaraq onları universitetdə görməkdən məmnunluq duyduğunu bildirdi. Rafiq müəllim Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda edən qəhrəman oğullarımıza həsr etdiyim və hazırda təqdimatı keçirilən kitabımı şəhidlərimizin ölməz ruhuna həsr edilən qiymətli bir töhfə kimi dəyərləndirdi, bu münasibətləməni təbrik etdi və sonda bir daha mənə yaradıcılıq uğurları arzuladı.

Sonra Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Mirməcid Seyidov çıxış etdi. 44 günlük Vətən Müharibəsində qazanılan Şanlı Zəfərimizdən söz açan Mirməcid müəllim Azərbaycanda həyata keçirilən gənclər siyasətinin əsasında ölkə üçün layiqli vətəndaş və sağlam nəslin yetişdirilməsinin dayandığını bildirdi. O, çıxışındaUlu Öndərimizin gənclər siyasətindən söhbət açaraq vurğuladı ki, Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu müstəqil Azərbaycanın gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycan gəncləri milli ruhda yetişərək işğal altında olan torpaqlarımızın işğaldan azad edilməsində əvəzsiz rol oynadılar. Mirməcid müəllim də sonda kitabımın çapdan çıxması münasibətilə məni təbrik edərək mənə yeni-yeni nailiyyətlər arzuladı.

Vətən müharibəsi qazisi, ehtiyatda olan kapitan, Naxçıvan Qaziləri İctimai Birliyinin sədri Ceyhun Bayramov da Naxçıvanda şəhidlərin və qazilərin tanıdılması, şəhid ailələrinə dəstək yolunda görülən işlərdən söz açdı. Bu kitabın şəhidlərimizin əziz xatirəsinə ucaldılmış möhtəşəm bir abidə olduğunu nitqində xüsusi qeyd etdi.





Çıxış edən Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasının direktoru Xumar Məmmədova çıxışında müfəssəl şəkildə kitabın təsvirini verdi və kitabın ümumi məzmunu haqqında fikir söylədi.

Tədbirdə filologiya üzrə fəlsəfə doktoru, dosent, xalqımızın fəxri və qüruru olan böyük ziyalımız, mənə və bütün gənclərə həmişə dəstək olan vətənsevər şairimiz, çox hörmətli Xanəli Kərimli də gözəl və dərin mənalı bir çıxış etdi. O, məni ilk dəfə necə tanımasından söz açdı. 2020-ci ildə "Ulu Naxçıvanım" adlı sayca 3-cü kitabıma Lider TV-nin "Çıxış Yolu" verilişində keçirilən təqdimatda etdiyi çıxışınıtədbir iştirakçılarının diqqətinə çatdırdı. Həmin vaxt Xanəli müəllimin videogörüntü ilə söylədiyi o xoş sözlər və etdiyi o gözəl çıxış mənim xatirimdən heç bir zaman çıxmayacaqdır. O, həmin vaxt bu fikirləri söyləyəndə mən 3 il geriyə döndüm və Xanəli müəllimin veriliş gedişatında etdiyi çıxışı bir daha yadıma salaraq fərəhləndim. Xanəli müəllim 3 il bundan əvvəl olduğu kimi, daha doğrusu elə həmişə olduğu kimi bu dəfə də məni qürurlandırdı və öz çıxışı ilə məni çox sevindirdi. Böyük ziyalımız sonda mənim haqqımda gözəl fikirlər söylədi, yeni-yeni yaradıcılıq uğurları arzuladı və məni təbrik etdi. Çıxışını bitirdikdən sonra da mənimlə çox səmimi bir şəkildə görüşərək məni bağrına basdı. Dəyərli çıxışı üçün hamımız dayanmadan Xanəli müəllimi alqışlarla tribunadan yola saldıq.

Tədbirin tamamlanmasına sayılı dəqiqələr qalmış çıxış üçün söz şəhid ailələrinə verildi. Şəhid ailələri də onlara qarşı göstərilən qayğıdan söz açaraq təklif və xahişlərini bildirdilər. İlk olaraq Azərbaycan Silahlı Qüvvələrinin leytenantı, Vətən müharibəsi Şəhidi Emin Rəşadət oğlu Sadıqovun anası Gülşad Rüstəmova çıxış etdi.Gülşad ana çıxışında qeyd etdi ki, nə xoş sənin halına ki Allah bu yaşda şəhid sevgisini sənin ürəyinə salıb. Şəhid adı müqəddəsdir, lakin çox ağrılıdır, acılıdır, çox kədərlidir. Biz şəhid anaları bu ağrını sözlə ifadə edə bilmərik. Bu ağrını biz Allahımızla birlikdə özümüz ürəyimizdə yaşayırıq. Sonra Gülşad ana təşəkkür edərək çıxışını sona çatdırdı. Sonra digər şəhid valideynləri hazırda təqdimatı gedən kitab haqqında danışdılar. Mənə təşəkkürlərini və təbriklərini çatdırdılar. Onların hər birisinə minnətdaram. Şəhid ailələrinin kiçik əməyimə verdiyi böyük dəyər mənim üçün ifadə edilməz dərəcədə böyük ruh yüksəkliyi, stimul, qürur və fərəh verir, məni yeni-yeni yaradıcılıqlara doğru aparır. Bu, həmişə də belə olacaq.

Təqdimat mərasimində şəhid qardaşım Ramazan Göydağlının valideynləri Əbülfət əminin və Zülfünaz ananın haqqında bir haşiyə çıxmaq istəyirəm. Şəhid qardaşımın xatirəsinin işığında tanış olduğumuz vaxtdan etibarən Əbülfət əmi və Zülfünaz ana mənə həmişə, hər bir zaman mənəvi dəstək olublar. Mən onları əziz tutduğum kimi onlar da mənə son dərəcə səmimi və mehriban yanaşdılar və hətta öz ailə üzvlərindən belə ayırmadılar. Onlar bu gün də Ramazanın qardaşım olduğunu fikirləşirlər və demək istəyirəm ki, onlar yanılmırlar. Ramazan da daxilolmaqla, bütün şəhidlərimiz mənim öz qardaşlarımdırlar və onların xatirələri mənim üçün, təkcə mənim üçün yox, bütün xalqımız üçün daim əzizdir və elə də olacaqdır.Onlar əbədi olaraq bizim qəlblərimizdə məskən salıblar və daim orada yaşayacaqlar.

Bir daha onu da qeyd edim ki, tədbirdən qabaq Əbülfət əmi sosial şəbəkələr vasitəsilə Naxçıvandan olan və kitabda barələrində bəhs edilmiş şəhidlərimizin ailələrinə kitabımın təqdimatının keçiriləcəyini xəbər vermiş və hər kəsi tədbirə dəvət etmişdi. Şəhid ailələrinin tədbirə təşrif buyurmasında Əbülfət əminin təşkilatçılığı və xidməti çox böyük olmuşdur. Əbülfət əmi çıxışında kitabların, xüsusilə də şanlı zəfərimiz haqqında yazılan kitabların önəmindən danışdı və təqdimatı keçirilən bu kitabın da önəmini xüsusiləvurğuladı. Bildirdi ki, belə kitablar ilk olaraq məktəblərə və kitabxanalara hədiyyə edilməlidir. O, gənclərimizin kitablara olan həvəsindən də söhbət açdı. Mənimlə olan tanışlığından da geniş və müfəssəl bir şəkildə danışdı. Sonda isə mənə təşəkkürünü bildirdi və uğurlar arzuladı. Çıxışını bitirdikdən sonra o da Xanəli müəllim kimi eyni səmimiyyətdəmənimlə görüşdü. Mən Əbülfət əmi və Zülfünaz ana da daxil olmaqla bütün şəhid ailələrinə bir daha dərin minnətdarlığımı bildirirəm.

Həmçinin yuxarıda qeyd etdiyim kimi Kırna kənd tam orta məktəbinin coğrafiya müəllimi Həbibə Vəliyeva da tədbirdə çıxış etdi. Həbibə müəllimə çıxışında qeyd etdi ki, mən Sevindiyin müəllimi olmasam da elə hiss edirəm ki, mən onu 9 ildir tanıyıram. O, mənə səmimi diləklərini bildirdi və uğurlar arzuladı. Həbibə müəlliməyə xoş arzularına və səmimi çıxışına görə minnətdarlığımı bildirirəm.

Tədbirin sonunda isə çıxış üçün mənə söz verildi. Açığı, tədbirə və çıxışıma başlayana kimibir qədər həyəcanlıydım. Həyəcanımın artmasına gətirib çıxaran bir amil də çox güman ki, yuxusuzluq idi. Ancaq tədbirdə çıxış edən və etməyən bütün iştirakçıların gözündə gördüyüm və mənim gələcəyimə olan o ümid işığı mənim daxilimdə olan bütün həyəcanı və yuxusuzluğu yoxa çıxardı. Son dərəcə ayıq-sayıq davranıb çıxışımı məqsədəuyğun şəkildə etməyə çalışdım və şükürlər olsun ki, bunu bacardım.

***SEVİNDİK NƏSİBOĞLU***
***10-cu sinif şagirdi, şair-publisist,***
***AJB üzvü***